| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 09.02.2015 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 32 |
| **ADI** | “Dövlət xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 15-02-2015, Nəşr nömrəsi: 36), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2015, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 222) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 15.02.2015 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.180.010 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201502090032 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 17.02.2015 |

## “*Dövlət Xidmətlərinin* Elektron Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“*Dövlət Xidmətlərinin* Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**[2]

1. “*Dövlət Xidmətlərinin* Elektron Reyestrinin aparılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına*, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə, büdcə təşkilatlarına* tapşırılsın ki, bir ay müddətində göstərilən xidmətlərin Elektron Reyestrə daxil olunmasında iştirak edən əməkdaşların elektron imza ilə təmin edilməsi üçün zəruri tədbirlər görsünlər. [3]

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 09 fevral 2015-ci il
32

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 9 fevral tarixli 32 nömrəli qərarı ilə
təsdiq edilmişdir

### ***Dövlət Xidmətlərinin* Elektron Reyestrinin aparılması**

### **QAYDALARI**[4]

### **1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar “*Dövlət Xidmətlərinin* Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və Azərbaycan Respublikasında *Dövlət Xidmətlərinin* Elektron Reyestrinin formalaşdırılması, aparılması, istifadəsi və mühafizəsinin hüquqi və təşkilati əsaslarını müəyyən edir. [5]

1.2. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. dövlət xidməti (bundan sonra – xidmət) - *xidməti həyata keçirən qurumlar* tərəfindən səlahiyyətlərinin icrası zamanı göstərilən və müvafiq hüquqi nəticənin yaranmasına səbəb olan hərəkətlərin həyata keçirilməsi;[6]

*1.2.2. xidməti həyata keçirən qurum - mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatları;*[7]

1.2.3. xidmət istifadəçiləri - xidmət üçün müraciət etmiş dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər;

1.2.4. *Dövlət Xidmətlərinin* Elektron Reyestri (bundan sonra - Elektron Reyestr) – bu Qaydaların 2.1-ci və 2.2-ci bəndlərində göstərilən məlumatları əks etdirən informasiya ehtiyatı;[8]

1.2.5. Elektron Reyestr sistemi - Elektron Reyestrin aparılmasını təmin edən proqram - avadanlıq kompleksindən və informasiya ehtiyatından (Elektron Reyestr) ibarət sistem;

1.2.6. elektron anket - məlumatların daxil edildiyi interfeys;

1.2.7. xidmətin reqlamenti - xidmətlə bağlı Elektron Reyestrə daxil edilən məlumatlar toplusu.

1.3. Elektron Reyestrin aparılmasının əsas məqsədləri aşağıdakılardır:

1.3.1. *qurumların* göstərdikləri xidmətlərin ümumi sayının və istiqamətlərinin (fiziki və hüquqi şəxslərə, *qurumlara* və s.) müəyyən edilməsi;

1.3.2. xidmətlər haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi;

1.3.3. xidmət sahələri üzrə standartların və hər bir xidmətin reqlamentinin müəyyən edilməsi;

1.3.4. xidmətlərin elektronlaşdırılması istiqamətində görülən işlərin sürətləndirilməsi və bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi;

1.3.5. xidmətlərin göstərilməsi üçün istifadə olunan informasiya sistemlərinin və informasiya ehtiyatlarının inteqrasiyasının təmin edilməsi;

1.3.6. xidmətlərin təşkili üzrə dövlət xərclərinin səmərəli istifadəsi barədə təkliflərin verilməsi;

1.3.7. eyni məzmunlu xidmətlərin aşkar edilməsi və təkrarlılığın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi;

1.3.8. yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi;

1.3.9. xidmətlər üzrə təhlillərin, proqnozlaşdırmanın və monitorinqlərin aparılması;

1.3.10. vətəndaşların xidmətlər haqqında ətraflı məlumat əldəetmə imkanlarının və şəffaflığın təmin edilməsi;

1.3.11. *qurumların* fəaliyyətinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi;

1.3.12. xidmətlər üzrə mərkəzləşdirilmiş məlumat-axtarış bazasının yaradılması.

1.4. Elektron Reyestr və onun informasiya sistemi Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Elektron Reyestrin saxlanılması, fəaliyyəti və inkişafı üzrə xərclər dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Elektron Reyestr Azərbaycan Respublikasının dövlət dilində elektron daşıyıcılarda aparılır.

## 2. Elektron Reyestrin strukturu və ona daxil edilən məlumatlar

2.1. Elektron Reyestrdə olan məlumatlar onun informasiya resursunu təşkil edir. Elektron Reyestrə daxil edilən xidmətlər barədə məlumatlar müxtəlif sahələr üzrə təsnifləşdirilir (qruplaşdırılır).

2.2. Elektron Reyestr aşağıdakı bölmələrdən ibarətdir:

2.2.1. mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən xidmətlərin reyestri;

2.2.2. yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən xidmətlərin reyestri;

*2.2.2-1. digər qurumlar tərəfindən həyata keçirilən xidmətlərin reyestrləri;*[9]

*2.2.2-2. Vahid “G2B” (dövlət-biznes) elektron reyestri.*[10]

2.2.3. *xidməti həyata keçirən qurum* barədə məlumat.

2.3. Bu Qaydaların 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərində nəzərdə tutulmuş bölmələrə aşağıdakı məlumatlar daxil edilir:

2.3.1. xidmətin adı;

2.3.2. xidmətin məzmunu;

2.3.3. xidmətin təkrarlanmayan reyestr nömrəsi və onun Elektron Reyestrdə qeydiyyat tarixi;

2.3.4. xidməti həyata keçirən *qurumun* və (və ya) onun struktur bölməsinin adı;

2.3.5. xidmətin icrasında iştirak edən *qurumun* və (və ya) onun struktur bölməsinin adı;

2.3.6. xidmətin hüquqi əsası;

2.3.7. xidmətin həyata keçirilmə formaları;

2.3.8. xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması;

2.3.9. xidmətin həyata keçirilməsinin nəticəsi;

2.3.10. xidmət istifadəçisi barədə məlumat;

2.3.11. xidmətin həyata keçirilməsi müddəti;

2.3.12. xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti;

2.3.13. xidmətin göstərilmə yeri;

2.3.14. xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları;

2.3.15. xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması;

2.3.16. xidmətin həyata keçirilməsi üçün doldurulması tələb olunan müvafiq sənədlərin (ərizə, blank və s.) nümunələri;

2.3.17. xidmətin ödənişli və ya ödənişsiz əsaslarla həyata keçirilməsi, ödənişli xidmətin məbləği, hüquqi əsası və ödənilmə üsulları;

2.3.18. xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar;

2.3.19. xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar;

2.3.20. xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemi və ehtiyatları;

2.3.21. xidmətin elektronlaşma səviyyəsi;

2.3.22. elektron xidmətin avtomatlaşdırılma səviyyəsi;

2.3.23. xidmətdə dəyişikliklər edilməsinin və xidmətin ləğv olunmasının hüquqi əsası və tarixi;

2.3.24. xidmətlərdən istifadə edilməsi barədə statistik məlumatlar;

*2.3-1. Bu Qaydaların 2.2.2-2-ci yarımbəndində qeyd olunan bölməyə dövlət qurumlarının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdikləri xidmətlər barədə məlumatlar və verdikləri hüquqmüəyyənedici sənədlər daxil edilir (Bu Qaydaların 2.2.1-2.2.2-1-ci və 2.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş bölmələrə daxil edilən məlumatlar əsasında).*[11]

2.4. Elektron Reyestrə daxil edilmiş hər bir xidmətə təkrarolunmaz və dəyişilməz reyestr nömrəsi verilir. Reyestr nömrəsinin verilməsi avtomatlaşdırılmış rejimdə xüsusi proqram təminatı vasitəsilə həyata keçirilir.

2.5. Bu Qaydaların 2.2.3-cü yarımbəndində nəzərdə tutulmuş bölməyə aşağıdakılar daxil edilir:

2.5.1. xidməti həyata keçirən *qurumun*, onun struktur bölməsinin və xidməti bilavasitə həyata keçirən struktur bölməsinin poçt və yerləşdiyi ünvanı barədə məlumatlar;

2.5.2. xidməti həyata keçirən *qurumun*, o cümlədən xidmət barədə məlumatın, məsləhətlərin əldə edilə biləcəyi telefon və faks nömrələri, rəsmi internet informasiya ehtiyatının veb və elektron poçt ünvanı, iş qrafiki və digər zəruri məlumatlar;[12]

2.5.3. ödənişli *xidməti həyata keçirən qurumun* ödəmə rekvizitləri (hesabları) barədə məlumatlar.

## 3. Elektron Reyestrin operatoru

3.1. Elektron Reyestrin formalaşdırılmasını, aparılmasını, istifadəsini, mühafizəsini və bu istiqamətdə əlaqələndirməni təmin edən səlahiyyətli orqan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra – Reyestrin operatoru).

3.2. Reyestrin operatoru Elektron Reyestrin aparılması üzrə aşağıdakı funksiyaları həyata keçirir:

3.2.1. Elektron Reyestrin fəaliyyətinin təşkili, idarə olunması və inkişaf etdirilməsi;

3.2.2. Elektron Reyestrlə bağlı metodiki, informasiya-linqvistik, proqram-texniki dəstəyin təmin edilməsi;

3.2.3. *xidmətlər* barədə məlumatların yoxlanıldıqdan sonra Elektron Reyestrə daxil edilməsinə və yenilənməsinə nəzarət;[13]

3.2.4. xidmətlərlə bağlı Elektron Reyestrə daxil edilmiş məlumatların monitorinqi və təhlillərin aparılması;

3.2.5. xidmət sahələri üzrə standartların müəyyən edilməsi ilə bağlı təkliflərin verilməsi;

3.2.6. yeni növ xidmətlərin yaradılması, həmçinin xidmətlərin birləşdirilməsi, ayrılması və digər üsullarla asanlaşdırılması (sadələşdirilməsi) barədə təkliflərin verilməsi;

3.2.7. Elektron Reyestrə barəsində məlumat daxil edilmiş xidmətlər haqqında statistik məlumatların və analitik hesabatların hazırlanması;

3.2.8. xidmətlərin elektron qaydada təşkili və həyata keçirilməsi üçün vacib olan informasiya sistem və ehtiyatlarının inteqrasiyasının təmin edilməsi ilə bağlı təkliflərin verilməsi;

3.2.9. eyni məzmunlu xidmətlərin aradan qaldırılması ilə bağlı təkliflərin verilməsi;

3.2.10. Elektron Reyestrə daxil edilmiş məlumatların arxivləşdirilməsi və saxlanılması;

3.2.11. Elektron Reyestrin internet portalının yaradılması və aktuallığının təmin edilməsi;

3.2.12. Elektron Reyestrin dayanıqlı, fasiləsiz işləməsinin və informasiya təhlükəsizliyinin təmin edilməsi;

*3.2.13. xidmətlərlə bağlı daxil olan müraciətlərin (təklif və şikayətlərin) aidiyyəti üzrə müraciətə baxan qurumlara göndərilməsinin və onlar tərəfindən cavablandırılmasının Elektron Reyestr vasitəsilə təşkil edilməsi;*

*3.2.14. xidmətlərin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi, habelə qiymətləndirilmə zamanı bilavasitə yerində baxışın və rəy sorğularının keçirilməsi, xidmətlərin göstərilməsinin cari vəziyyəti, görülən işlər barədə arayışların, hesabatların alınması, müxtəlif sorğuların göndərilməsi.*[14]

3.3. Xidməti həyata keçirən *qurumun* vəzifəli şəxsi bu Qaydalarda nəzərdə tutulmuş Elektron Reyestrə daxil ediləcək məlumatların təqdim olunmamasına və məzmununa görə məsuliyyət daşıyır.

## 4. Elektron Reyestrin aparılması

4.1. Elektron Reyestrin aparılması üçün *xidməti həyata keçirən qurumlar* ilə qarşılıqlı informasiya mübadiləsi informasiya sisteminin istifadəçi interfeysi vasitəsilə təmin edilir.

4.2. *Qurum* tərəfindən göstərilən xidmət Elektron Reyestrə daxil edilməsi üçün aşağıdakı tələblərə (meyarlara) cavab verməlidir:

4.2.1. xidmət istifadəçisinin müraciəti əsasında həyata keçirilməli;

4.2.2. *qurumun* vəzifələrini həyata keçirməyə yönəldilməli;

4.2.3. xidmət istifadəçisinin hüquqlarının həyata keçirilməsinə yönəldilməli və ya ona maddi və qeyri-maddi nemətlər verilməklə müvafiq hüquqi nəticənin yaranmasına səbəb olmalıdır.

4.3. Elektron Reyestrin elektron anketlərinin doldurulması Reyestrin operatorunun metodiki tövsiyələrinə uyğun həyata keçirilir.

4.4. Elektron Reyestrin elektron anketlərinin metodiki tövsiyələrə uyğun doldurulması avtomatlaşdırılmış formal məntiqi yoxlama sistemi vasitəsilə təmin edilir.

4.5. Elektron Reyestrə xidmətlər barədə məlumatların daxil edilməsi üçün *xidməti həyata keçirən qurum*:[15]

4.5.1. Elektron Reyestrin elektron anketlərinin doldurulması üçün məsul şəxs (bundan sonra – məsul şəxs) təyin edir;

4.5.2. məsul şəxs vasitəsilə bu Qaydaların 2.3-cü və 2.5-ci bəndlərinə uyğun olaraq məlumatları müəyyən edərək Elektron Reyestrin elektron anketlərini doldurur və elektron imza ilə təsdiq edir;

4.5.3. Elektron Reyestrə daxil edilmiş məlumatların tamlığını və düzgünlüyünü mütəmadi yoxlayır;

4.5.4. Elektron Reyestrin operatorundan bildiriş aldıqdan 7 (yeddi) iş günü ərzində Elektron Reyestrin elektron anketləri üzrə məlumatlarda müvafiq dəyişikliklər edərək onları yenidən göndərir;

4.5.5. Elektron Reyestrdə olan məlumatlarda dəyişikliklərin edilməsi və ya onların çıxarılması üçün Reyestrin operatoruna müraciət edir;

4.5.6. yeni xidməti müəyyən edən normativ hüquqi aktın qüvvəyə mindiyi tarixdən 1 (bir) aydan gec olmayaraq Elektron Reyestrin müvafiq elektron anketləri üzrə məlumatları təqdim edir;

*4.5.7. göstərdiyi xidmətlərlə bağlı müraciətləri (təklif və şikayətləri) Elektron Reyestr vasitəsilə qəbul edir və cavablandırır;*

*4.5.8. göstərdiyi xidmətlərin Reyestrin operatoru tərəfindən "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi zamanı yerində baxışın və rəy sorğularının keçirilməsinə zəruri şərait yaradır, xidmətlərin göstərilməsinin cari vəziyyəti, görülən işlər barədə arayışları və hesabatları təqdim edir, sorğuları cavablandırır.*[16]

4.6. Xidmətin göstərilməsində bir neçə *qurum* iştirak etdikdə, bu Qaydaların 4.5-ci bəndi ilə müəyyən edilən vəzifələr xidmətin nəticəsini təqdim edən *qurum* tərəfindən həyata keçirilir.

4.7. Elektron Reyestrə xidmətlər barədə məlumatların daxil edilməsi üçün Reyestrin operatoru:

4.7.1. məlumatların təqdim edildiyi gündən 7 (yeddi) iş günü ərzində Elektron Reyestrin müvafiq elektron anketləri üzrə onların tamlığını və düzgünlüyünü yoxlayır;

4.7.2. yoxlama zamanı çatışmazlıq aşkar edilmədikdə, məlumatları təyin etdiyi məsul şəxsin elektron imzası ilə təsdiq edir və Elektron Reyestrin müvafiq bölməsinə daxil edir;

4.7.3. yoxlama zamanı hər hansı çatışmazlıq aşkar edildikdə, bu barədə məlumatı təqdim etmiş *quruma* 1 (bir) iş günü ərzində elektron formada bildiriş göndərir;

4.7.4. Elektron Reyestrdə dəyişikliklər edilməsi zərurəti yarandıqda və ya oradan çıxarılmalı olan məlumatlar aşkar edildikdə xidməti həyata keçirən *quruma* bu barədə elektron formada bildiriş göndərir.

4.8. Elektron Reyestrdən məlumatların çıxarılmasına aşağıdakılar əsasdır:

4.8.1. xidmətin həyata keçirilməsi əsaslarını ləğv edən normativ hüquqi aktın qüvvəyə minməsi;

4.8.2. Elektron Reyestrə daxil edilmiş məlumatların normativ hüquqi aktlarda nəzərdə tutulmaması.

4.9. Elektron Reyestrdə məlumatlarda dəyişikliklərin (düzəlişlərin) edilməsi və ya onların çıxarılması bu Qaydaların 4.2-4.8-ci bəndlərinə uyğun olaraq aparılır.

4.10. Ləğv edilmiş xidmətlər haqqında məlumatlar Elektron Reyestrdən çıxarılır və arxivləşdirilir. Elektron Reyestrdə məlumatların arxivləşdirilməsi müvafiq qanunvericiliyə uyğun aparılır.

4.11. Elektron Reyestrin təşkili və idarə olunması, məlumatların avtomatlaşdırılmış qaydada qəbul edilməsi, toplanılması, işlənilməsi, arxivləşdirilməsi və mühafizəsinin aparılması xüsusi proqram təminatı vasitəsilə həyata keçirilir.

4.12. Elektron Reyestrin mövcud informasiya ehtiyatının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə onun aktual ehtiyat nüsxəsinin mövcudluğu və saxlanılması təmin edilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** )
2. 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)**
3. 6 avqust 2019-cu il tarixli **344** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 8 avqust 2019-cu il, 172 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1451)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə adında və 1-ci hissəsində "**Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin**" sözləri "**Dövlət xidmətlərinin**" sözləri ilə əvəz edilmişdir.

[2] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə Preambulada "**Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin**" sözləri "**Dövlət Xidmətlərinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə 2-ci hissəyə "**orqanlarına**" sözündən sonra "**, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə, büdcə təşkilatlarına**" sözləri əlavə edilmişdir.

[4] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları"nın adında və 1.1-ci bəndində "**Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin**" sözləri **"Dövlət xidmətlərinin**" sözləri ilə əvəz edilmişdir.

20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları"nın mətn üzrə ismin müvafiq hallarında "**dövlət orqanları**" sözləri ismin müvafiq hallarında "**qurumlar**" sözü ilə əvəz edilmişdir.

20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları"nın mətn üzrə ismin müvafiq hallarında "**dövlət orqanı**" sözləri ismin müvafiq hallarında "**qurum**" sözü ilə əvəz edilmişdir.

[5] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları"nın 1.1-ci bənddə "**dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin**" sözləri "**dövlət xidmətlərinin**" sözləri ilə əvəz edilmişdir.

9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə adında və 1.1-ci bəndində (birinci halda) "**xidmətlərinin**" sözü "**Xidmətlərinin**" sözü ilə əvəz edilmişdir.

9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 1.1-ci bənddə “**dövlət xidmətlərinin**” sözləri “**Dövlət Xidmətlərinin**” sözləri ilə əvəz edilmişdir.

[6] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 1.2.1-ci yarımbəndə “**qurumlar**” sözündən əvvəl “**xidməti həyata keçirən**” sözləri əlavə edilmişdir.

[7] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə “Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları”nın 1.2.2-ci yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.2.2. xidməti həyata keçirən dövlət orqanı - mərkəzi və ya yerli icra hakimiyyəti orqanları, onların strukturuna daxil olan yerli bölmələr;~~

[8] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 1.2.4-cü yarımbənddə “**xidmətlərin**” sözü “**Dövlət Xidmətlərinin**” sözləri ilə əvəz edilmişdir.

[9] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə yeni məzmunda 2.2.2-1-ci yarımbənd əlavə edilmişdir.

[10] 6 avqust 2019-cu il tarixli **344** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 8 avqust 2019-cu il, 172, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1451)** ilə “Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları”na yeni məzmunda 2.2.2-2-ci yarımbənd əlavə edilmişdir.

[11] 6 avqust 2019-cu il tarixli **344** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 8 avqust 2019-cu il, 172, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1451)** ilə “Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları”nın 2.3.24-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.3-1-ci bənd əlavə edilmişdir.

[12] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 2.5.1-ci və 2.5.2-ci yarımbəndlərdə “**orqanın**” sözü “**qurumun**” sözü ilə əvəz edilmişdir.

[13] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə “Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları”nın 3.2.3-cü yarımbənddə “**dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlər**” sözləri “**dövlət xidmətləri**” sözləri ilə əvəz edilmişdir.

9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 3.2.3-cü yarımbənddə “**dövlət xidmətləri**” sözləri “**xidmətlər**” sözü ilə əvəz edilmişdir.

[14] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə “Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları”nın 3.2.12-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.2.13-cü və 3.2.14-cü yarımbəndlər əlavə edilmişdir.

[15] 9 dekabr 2016-cı il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2215)** ilə 2.2.3-cü, 2.5.3-cü yarımbəndlərdə, 4.1-ci və 4.5-ci bəndlərdə “**xidmət göstərən**” sözləri “**xidməti həyata keçirən**” sözləri ilə əvəz edilmişdir.

[16] 20 sentyabr 2016-cı il tarixli **350** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 sentyabr 2016-cı il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1577** ) ilə “Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları”nın 4.5.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 4.5.7-ci və 4.5.8-ci yarımbəndlər əlavə edilmişdir.